# Məşhur jurnalist BDU-da kefedra müdiri seçildi;müstəqillik dövründə jurnalistika üzrə ilk elmlər doktoruna vəzifə verildi



**Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin Elmi Şurasında tanınmış telejurnalist və publisist, TV tənqidçisi və media mütəxəssisi, professor Qulu Məhərrəmli kafedra müdiri vəzifəsinə seçilib. Q.Məhərrəmli bundan sonra universitetin “Multimedia və elektron kommunikasiya” (keçmiş “Televiziya və radio jurnalistikası”) kafedrasına rəhbərlik edəcək. Professor 24 ildir ki, həmin kafedrada çalışır və bir sıra aparıcı fənləri tədris edir.**

Ölkə ictimaiyyəti Qulu Məhərrəmlini əsasən məşhur televiziya aparıcısı, vaxtilə müxtəlif telekanallarda efirə getmiş “7 gün”, “Təfsilat”, “Gerçəklik”, “Səhər” (AzTV), “Dost məclisi”, “Gündəm” (Xəzər TV), “Mətbuat aynasında” (GünAz TV) kimi yaddaqalan televerilişlərin yaradıcısı və müəllifi kimi, həm də siyasi şərhçi, teletənqidçi və media eksperti kimi tanıyır. Amma elmi dairələrdə Q.Məhərrəmli həm də jurnalistika və dilçilik sahəsində söz sahibi olan nüfuzlu alim kimi qəbul olunur.

1978-ci ildə BDU-nun jurnalistika fakültəsini bitirmiş Q.Məhərrəmli elə həmin ildən Azərbaycan televiziyasının “Xəbərlər” baş redaksiyasında reportyor kimi fəaliyyətə başlayıb. Bir il sonra “Elmi-kütləvi və tədris” verilişləru baş redaksiyasında redaktor vəzifəsinə keçirilib. 1982-ci ildən televiziyada yeni yaradılmış “Beynəlxalq həyat” redaksiyasına böyük redaktor təyin olunub, siyasi icmalçılar qrupuna və gündəlik efirə çıxan beynəlxalq mövzuda verilişlərə (“Planetimizin mənzərəsi, “Qitələr, hadisələr”) rəhbərlik edib. Həmin redaksiyanın xətti ilə efirə çıxan “Azərbaycan dünya meridianlarında” və “Yer kürəsi: müharibə, yoxsa sülh?” kimi ciddi maraq doğuran verilişlərin müəllifi olub.



1991-ci ildən Azərbaycan televiziyasında xəbər aparıcısı kimi müntəzəm efirə çıxmış Q.Məhərrəmli daha çox 1993-1995-ci illərdə apardığı “7 gün” analitik informasiya proqramı ilə tanınınb, obyektivliyi və qərəzsizliyi, hadisələrə vicdanlı münasibəti və yüksək peşəkarlığı ilə də fərqlənib. Mükəmməl analitik veriliş formatı olan “7 gün” teleməkanımızda jurnalistikanın yeni prinsiplərinin təsdiqində əhəmiyyətli rol oynayıb.

1995-ci ildə Azərbaycan televiziyasının ilk siyasi icmalçısı təyin edilmiş Q.Məhərrəmli uzun müddət dövlət başçısını xarici səfərlərdə müşayiət etmiş, bu səfərlər haqında silsilə verilişlər hazırlamışdır. Həmin il qısa müddətdə AzTV-nin “Xəbərlər” baş redaksiyasına da rəhbərlik edib. 1995-ci ilin avqustunda onun aparıcılığı və rəhbərliyi ilə efirə çıxmış “Səhər” musiqi-informasiya proqramı 25 ildən çoxdur ki, teleməkanımızın ən populyar proqramlarından biri olaraq qalır. Q.Məhərrəmlinn apardığı “Təfsilat” və “Gerçəklik” müəllif proqramları, həmçinin populyar siyasi şərhləri, hadisə yerlərindən apardığı canlı reportajlar bu gün də tamaşaçıların yaddaşındadır. 2007-ci ildən sonra jurnalistlik fəaliyyətini Xəzər TV və CünAz TV kimi telekanallarda davam etdirən Q.Məhərrəmli hazırda Pressklub TV yutub kanalının rəhbəridir.



1982-ci ildən elmi, 1991-ci ildən isə pedaqoji fəaliyyətə başlamış Q.Məhərrəmli 1989-cu ildə “Radiodramaturgiya dili” mövzusunda namizədlik, 2004-cü ildə isə “Televiziya dili: funksiya və struktur” mövzusunda doktorluq dissertasiyası müdafiə edib. O, müstəqillik dövründə ölkəmizdə jurnalistika üzrə ilk elmlər doktorudur. Elmi araşdırmalarında jurnalistikanın və medianın ümumi nəzəriyyəsi, media etikası, Azərbaycan televiziyası və radiosunun tarixi, teleradionun aktual elmi-nəzəri problemləri, o cümlədən ekran-efirin mürəkkəb dil sisteminin öyrənilməsi əsas yer tutur.

Q.Məhərrəmli 1998-ci ildə BDU-nun Televiziya və radio jurnalistikası kafedrasında müəllim vəzifəsinə qəbul edilib, 2000-ci ildə baş müəllim, 2002-ci ildə dosent, 2006-cı ildən professordur. “Əməkdar jurnalist” fəxri adına (2006) layiq görülüb. Xarici ölkələrdə dəfələrlə Azərbaycan jurnalistikasını və jurnalistika elmimizi təmsil edib. 2005-2008-ci illərdə Mətbuat Şurası sədrinin müavini olub.

Hazırda media problemləri, o cümlədən teleradio jurnalistikası üzrə nüfuzlu mütəxəssis kimi tanınan prof. Q.Məhərrəmli 40-a yaxın kitabın, o cümlədən bir neçə monoqrafiya, “Jurnalistikanən əsasları”, “Televiziya jurnalistikası”, “Radio jurnalistikası: təməl biliklər”, “Radio dərsləri”, “Kütləvi kommunikasiya və dil”, “Mediada debatlar” və s. kimi populyar dərslik və dərs vəsaitlərinin müəllifidir. Əsərləri ingilis, alman, rus, koreya, fars və çex dillərində çap edilib.

Prof. Q.Məhərrəmli həm də Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparan mütəxəssis kimi tanınır. O, 2014-2016-cı illərdə AMEA-nın Nəsimi adına Dilçilik institutunda Monitorinq şöbəsinə rəhbərlik edib. Hazırda media əhlinin də tez-tez müraciət etdiyi azleks.az elektron lüğətlər toplusunun baş redaktoru kimi də fəaliyyət göstərən Q.Məhərrəmli leksikoqrafiya sahəsinə də qiymətli töhfələr verib. Onun “Kino, televiziya, radio terminləri”, “Mediada işlənən alınma sözlər”, “Məktəblinin alınma sözlər lüğəti”, “Jurnalistika terminləri” “Azərbaycan dilinin frazelogiya lüğəti”, “Yeni alınma sözlər” kimi izahlı sözlüklərini mütəxəssislər yüksək qiymətləndirirlər.

Həmkarlarının sevimlisi olan professor Qulu Məhərrəmlini yeni nailiyyəti münasibətilə ürəkdən təbrik edir, elmi-pedaqoji fəaliyyətində, jurnalistikamız üçün peşəkar kadrların hazırlanması işində ona yeni-yeni uğurlar arzulayırıq.





***Bülbül İLQAR QIZI***